RƏYLƏR, MÜLAHİZƏLƏR

# Strateji tərəfdaşlıqdan çoxşaxəli əməkdaşlığa

**Vyetnam Sosialist Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın ölkəmizə səfəri ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 6 may 2025-ci il tarixdə mətbuata verdiyi bəyanatla bir çox önəmli məsələlərə toxunmuşdur. Ölkə başçısı bəyan etmişdir ki, cənab To Lamın Azərbaycana səfəri iki ölkə arasında əlaqələrin inkişafı üçün əhəmiyyətlidir. Xüsusi olaraq Azərbaycan ilə Vyetnam arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanatın imzalanması çox mühüm addımdır. Ölkələrarası münasibətlər gələcək ikitərəfli əməkdaşlıq üçün böyük zəmin yaratmışdır. Hər iki ölkə rəsmisi arasında baş tutmuş görüş, eyni zamanda dövlətlərin bir çox istiqamətlərdə razılığa gəlməsi və mühüm sənədlərin imzalanması ilə nəticələnmişdir. Azərbaycanla Vyetnam arasında müsbət əlaqələr ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə də çox ciddi əməkdaşlığın formalaşmasına imkan yaradır.**



Pərvanə VƏLİYEVA,
Milli Məclisin deputatı.

Energetika sahəsində imzalanmış sənədlər və aparılan müzakirələr deməyə əsas verir ki, Azərbaycanla Vyetnam yaxın gələcəkdə bu sahədə əməkdaşlığı daha da genişləndirəcək. Tezliklə keçirilməsi nəzərdə tutulan Hökumətlərarası Komissiyanın iclası ölkələrin ticarət əməkdaşlığı üçün həm Vyetnam şirkətlərinin Azərbaycana, həm də Azərbaycanın neft şirkətinin Vyetnama sərmayə qoyuluşu məsələlərinin həll olunmasını, eləcə də ölkələrin bu istiqamətlərdə əməkdaşlığını daha da sürətləndirəcək.

Birgə Bəyanata daxil olan sənədlərdən biri də bərpaolunan enerji növlərinin istehsalı ilə bağlıdır. Azərbaycanın bu sahədə çox böyük imkanları, potensialı var. İmzalanmış kontraktlar 5 il bundan sonra ölkəmizə 6500 meqavat gücündə təmiz enerji gücləri qazandıracaq. Vyetnam şirkətlərinin də bu sahədə ölkəmizə investisiya yatırması layihələrin artmasına və genişlənməsinə səbəb olacaq. Bu, eyni zamanda ölkəmizin iqtsadi inkişafı üçün də bir təkandır. Hər iki ölkə arasında müdafiə sənayesi sahəsinin inkişaf etdirilməsi də önəmli məsələlərdəndir. Çünki həm Azərbaycan, həm də Vyetnamda bu sahə kifayət qədər inkişaf edib. Bu istiqamətdə əlaqələrin gücləndirilməsinin, birgə müəssisələrin yaradılmasının və qarşılıqlı əməkdaşlığın hər iki dövlətə yüksək faydası olacaq.

Vyetnamla Azərbaycanın Beynəlxalq təşkilatlarda da birgə fəaliyyəti təqdirəlayiqdir. Vyetnam bir neçə il öncə Azərbaycanı BMT Təhlükəsizlik Şurasında çox ciddi dəstəkləmişdir və buna görə Azərbaycan Vyetnama hər zaman minnətdardır. Ölkələrimiz həm də Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyət göstərir. Bu iki dövlətin beynəlxalq hüququn aliliyinə dair baxışlarında da fikir ayrılığı yoxdur. Hər iki dövlət düşünür ki, bütün məsələlər ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı əsasında - beynəlxalq hüquq çərçivəsində öz həllini tapmalı, bütün mübahisəli məsələlər danışıqlar yolu ilə həll olunmalıdır. Müzakirə edilən məsələlərdən biri də ölkələri birləşdirən nəqliyyat infrastruktur layihələridir ki, Azərbaycanla Vyetnam həm Şimal-Cənub, həm də Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdıra bilər.

Ölkə rəsmiləri arasında keçirilən görüşdə qəbul edilən qərarlar və imzalanan mühüm sənədlər onu deməyə əsas verir ki, hər iki dövlət müzakirə olunan bütün istiqamətlərdə vahid mövqedən çıxış edir. Eləcə də siyasi, iqtisadi və digər baxışlarda da oxşarlıqlar var. Bu görüş hər iki dövlətin iqtisadi, siyasi, ticari və maraqlarını daha da artıracaq, mövcud əlaqələrini gücləndirəcək, dostluq münasibətlərini daha da dərinləşdirəcək. ■